# "Odlar diyarı" rəqs ansamblı

Deyirlər ki, istedad insanı ömrü boyu izləyir, təbin, ilhamın bol, ener-jinin güclü vaxtı onu tərpədir və orta-ya məhsul qoyulur. İstedadla sənət həvəsi qoşalaşanda, peşə sevgisi daim üst qatda olanda, yaşından asılı olmayaraq sənət adamı yaradıcılıq işlərinə baş vurur və müəyyən nəti-cələrə nail olur. Odur ki, yaradıcı adamlar yaşa dolarkən, onlara daha çox qayğı olmalı, öz bilik və baca-rığını göstərmək, yaradıcılıq işlərini ortaya qoymaq üçün hər cür şərait yaradlmalıdır. Dünya sənət təcrübəsi göstərir ki, ədəbiyyat, incəsənət, mə-dəniyyət, musiqi xadimləri bir çox hallarda ömrünün daha təcrübəli, yaşlı zamanında, müdrik çağlarında, el dilində deyildiyi kimi sənətin bar-bəhərli, şirəli dövründə ortaya nadir sənət nümunələri qoyublar. Təbii ki, belə hallar bizim bu qocaman, müdrik, başı ucalarda dayanan Azər-baycanımızda da olub. Nümunələr göstərmək fikrində olmadığımız üçün mətləbə keçirik. Əslində, haqqında Məmmədov, Ramiz Eynullayev, Şamil Əliyev, Qorxmaz Qurbanov, Aliyə Ramazanova, Yaqub və Rafiq Əzizov qardaşları, Tamilla Məmmədova, Əliağa Yəhyayev, Azad Hüseynov, Mənsur Məmmədov, Elman Hüseynov, Əkbər Həsənov, Zemfira Həsənova, Nisəxanım Rəhimova, Nazim Abdullayev, Dilbər Abdullayeva və Xanlar Bəşirov kimi sənətkarlardan ibarət idi. Bunların hər biri milli rəqs sənətinin dərin bilicisi, gücü-qüdrəti və sütunu olaraq rəqs incəsənətimizin Azərbaycanda, keçmiş SSRİ məkanında və dünya ölkələrində təbliği, tanınması və tərənnümündə xüsusi rol oynamışdılar. Deməli, belə müqtədir sənətkarlar bir yerə toplanaraq böyük sənət gücünə çevrilmişdilər. Onların doğum tarixi 1929-cu ildən başlayrdı. Yəni xeyli yaş həddinə malik olsalar, da sənətə olan eşq-həvəsləri sönməmişdi, yüksək peşə əzmi ilə çalışmaq və yeni nailiyyətlər qazanmaq arzu-suyla işə başlamışdılar. Ansamblın repertuarı tam

Həmin rəqs ansamblı və 1988-ci ildən başlayaraq qardaş ölkə Türkiyədə keçirilən festivallarda möhtəşəm proqramlarla çıxış edərək məhəbbət, rəğbət qazanmış və maraq yaratmışdılar. Bu ansambl Rusiyanın Çelyabinsk vilayətinə və İsrail ölkəsinə olan səfərlərdə də diqqət yaratmış və böyük uğurları imza-lamışdı. T.Mahmudova "Tərəkəmə", Z.Həsənova "İnnabı" rəqslərini solo oynayırdı. Aliyə Ramazanova hər səfərdə səhnəyə müxtəlif solo ifalarla çıxırdı. "Nazeləmə" duet-rəqslə hər konsertdə müxtəlif rəqqas və rəq-qasələr görünürdü. "Dağlar gözəli"-ndə bir qadın - Z.Həsənova, iki kişi - R.Əzizov, X.Bəşirov (bəzən də Q.Qurbanov) maraqlı sənət nümayiş etdirirdilər. "Nazlana-nazlana" kütləvi rəqsdə xanımlar qrupu çıxış edir və onlardan biri solo oynayırdı. "Qay-tağı"-kütləvi rəqsdə K.Dadaşov, Q.Qurbanov, Ə.Yəhyayev, N.Abdullayev və X.Bə-şirovun hər birinin solo ifası var idi.



oxuculara bilgi vermək istədiyimiz bir yaradıcı kollektiv özü də fikrimizə bir nümunədir.

Bir zamanlar vətənimizdə qoca-man rəqs ustaları, xoreoqraflar, rəqqas və rəqqasələr bir yerə toplanıb, "Odlar diyarı" adlanan bir ansambl yaradıb sənət meydanına yenidən daxil olaraq bir sıra uğurlara imza atdılar. Həmin kollektiv üzvlərinin tən yarısı ömrü başa vurub haqq dünyada uyumaqdadırlar. Ruhları şad olsun.

Bu ansambl əməkdar artist, tanınmış rəqqas Rafiq Əzizovun təşəbbüsü və xidməti nəticəsində 1988-ci ilin sentyabr ayında Bakıda rəqs sənətimizin nadir inciləri, veteranlar və əsl sənət ustad-larından ibarət olaraq yaranmışdı. Məqsəd sənətdə ad-san qazanmış, rəqsə ömür həsr etmiş, yaşa dolmuş sənətkarları yenidən səhnəyə gətirməklə onları yaşatmaq, daha da ucaltmaq, peşə sevincini özlərinə qaytarmaq, cəmiyyətə, bü-tünlükdə isə incəsənətə gərəkli olduqlarını sübut etməklə fərəhlən-dirmək idi. Həm də burada bir incə mətləb də hökm sürürdü, yəni belə uca, vaxtılə sevimli, populyar olmuş, səhnələri fəth etmiş, alqışlarla, tériflərlə, dərin rəğbətlə qarşılanmış sənətkarların mükəmməl ifalarını bir daha açıb göstərmək, həm də təcrü-bələrini yaymaq idi. Ansambl qısa fəaliyyəti dövründə adını doğrulmuş və bu sönməyən ulduzlar həqiqətən böyük sənətkarlar olduqlarını sübut etmişdilər. Üzvlər Şəfiqə Hənifəyeva, Nailə Məhmudova, Əlikram Aslanov, Kamil Dadaşov, Tofiq Hü-seynov, Ramiz milli xarakterli rəqslər idi və heyətin tərkibindəkilərin hər birinin ustadı olmuş Əlibaba Abdul-layevin quruluş verdiyi sənət nümu-nələrini özündə əks etdirirdi. Kollektivin üzvləri Əlibaba müəllimin qurduğu hər bir rəqsi çox yaxşı bilir, sevir, yenidən yaşatmağa can atır və dərin həvəs göstərirdilər.

Bu ansambla iki müğənni və yeddi müşayiətçi musiqiçi cəlb edilmişdi. Müğənnilərin biri əməkdar artist Məmməd Salmanov idi.

Bir neçə konsertdən sonra ansambl Çexoslovakiyaya folklor festifalına yola düşür və SSRİ-nin tərkibində olan respublikamızı təmsil edir. Orada möhtəşəm Yaşıl Parkın böyük səhnəsində İtaliya, Yuqoslaviya, Macarıstan, Bol-qarıstan, Polşa, Cexoslovakiya və Fransanın folklor kollektivləri ilə qarşılaşır. Bütün folklor kollektivlərinin üzvləri 15 yaşdan, 75 yaş həddinə qədər olan ifaçılar idi. Onlar öz xüsusi folklor rəqs geyimləri ilə şəhərin küçələrində nümayişkaranə gəzintiləri ilə də tamaşaçılarda maraq oyadırdılar.

"Odlar diyarı" rəqs ansamblı öz proqramı və ifası ilə festivalda çox böyük maraq yaratmışdı. Proqramda vaxtılə Əlibaba Abdullayevin quruluş verdiyi "Yallı", "Üzümçülər", "Dəsmalı", "Vağzalı" və "Çobanlar" rəqsləri var idi. Ansambl səfər etdiyi ölkənin müxtəlif şəhərlərində bir-birindən uğurlu on beş konsert vermişdi. "Odlar diyarı" nəinki ta-maşaçıları, hətta festivalda çıxış edən folklor kollektivlərini də heyran etmişdi.

"Məzəli hadisə"də əksər hallarda M.Məmmədov, A.Ramazanova və N.Mahmudova çıxış edirdi. "Odlar diyarı" Türkiyə səfərlərinə hər dəfə ayrı-ayrı proqramla gedir və həmişə alqışlar qazanırdı.

Qədim odlar diyarı Azərbaycanın incəsənətini təmsil etmək gücünə malik "Odlar diyarı" rəqs ansamblı qalan ömrünü artıq tarixdə yaşayır. Elə biz də həmin ansamblın və onun nadir ifaçılarının adını tarixdə yaşatmaq ümidilə bu məqaləni ortaya çıxardıq.



***Əhsən RSSHMANLI,***
***tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktor***